# Tariximizin şərəfli səhifəsi

**Azərbaycanda ədliyyə və məhkəmə orqanlarının xalqımızın müstəqillik uğrunda mübarizəsində onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Müstəqil dövlətimizin ədliyyə tarixi Azərbaycan Demokratik Respublikasının dövrünə təsadüf edir və məhz həmin zaman Azərbaycan Ədliyyəsinin əsası qoyulmuşdur. Şərqdə və müsəlman aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün, 1918-ci ilin may ayının 28-də Ədliyyə Nazirliyi də təsis edilmiş və həmin ilin noyabr ayının 14-də "Azərbaycan Respublikasının Məhkəmə Palatası və onun Əsasnaməsi", noyabr ayının 22-də isə "Nazirliyin Əsasnaməsi" təsdiq edilmişdir.**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ötən dövr ərzində zəngin, keşməkeşli bir yol keçərək müasir inkişaf mərhələsinə çatıb, dövlətin hüquq siyasətini həyata keçirən orqana çevrilib, səlahiyyətləri xeyli genişlənib, cəmiyyətdə nüfuzu daha da yüksəlib. İldən-ilə ölkəmizdə aparılan hüquqi islahatlarda ədliyyə işçilərinin də fəal iştirak etməsi qürurverici hal olmaqla, fərəh hissi yaradır. Azərbaycan ədliyyəsinin uğurları respublikamıza rəhbərliyinin bütün dövrlərində insan hüquqlarının təminatını ali məqsəd kimi önə çəkən ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günü elan edilmişdir. Ulu öndərin bu yüksək etimadı ədliyyə və məhkəmə orqanlarının əməkdaşları tərəfindən dərin minnətdarlıq hissi ilə qarşılanmışdı. Ümummilli liderimizin Azərbaycan ədliyyəsinə xüsusi diqqəti ölkəmizin müstəqillik illərində də davam etmiş, hüquq sistemində inqilabi demokratik yeniliklərə səbəb olan məhkəmə-hüquq islahatı həyata keçirilmiş, ədliyyə işi müasir tələblərə uyğunlaşdırılmışdır. Ulu öndər Heydər Əliyevin dövlət quruculuğu xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyə sistemi daha da inkişaf etmiş, onun normativ bazası daha da təkmilləşdirilmiş, o cümlədən ədliyyə orqanlarında qulluq keçmə haqda qanun, nazirliyin yeni əsasnaməsi qəbul edilmiş, ona hüquq-mühafizə orqanı statusu verilmiş, ədliyyə orqanlarının inkişafı, məhkəmə sisteminin müasirləşdirilməsi haqqında proqram xarakterli fərmanlar imzalanmışdır.

Azərbaycanın müstəqilliyinin bərpasından sonra bütün sahələrdə olduğu kimi, hüquq sahəsində də islahatların həyata keçirilməsi, tamamilə yeni hüquq və məhkəmə sisteminin formalaşdırılması, daha mütərəqqi və demokratik dəyərlərə əsaslanan qanunvericilik bazasının yaradılması günün tələbinə çevrilib, ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirilib. Şəki Məhkəmə Kompleksinin açılışında dövlət başçısı cənab İlham Əliyev demişdir: **"Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Hüquqi dövlət quruculuğu prosesinin təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Onun təşəbbüsü ilə 1990-cı illərin əvvəllərində çox ciddi addımlar atılmışdır. Müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. O vaxt belə bir strateji istiqamət müəyyən edilmişdir ki, Azərbaycanda hüquqi dövlət qurulmalıdır, qanunun aliliyi təmin edilməlidir və məhkəmə sistemi dünyada mövcud olan ən mütərəqqi təcrübəyə əsaslanmalıdır. Hesab edirəm ki, son illər ərzində bu istiqamətdə böyük nailiyyətlər əldə edilib".**

Həyata keçirilən islahatlar göstərir ki, Azərbaycanda məhkəmə orqanlarının nüfuzlu və müstəqil hakimiyyət qolu kimi təşəkkül tapması, ədalət mühakiməsinin reallaşdırılması zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın, obyektivliyin təmini və digər mühüm məsələlərin həlli ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Əminliklə söyləmək olar ki, inamla həyata keçirilən məhkəmə və ədliyyə islahatları respublikada qanunçuluğun, hüquq qaydalarının daha da möhkəmlənməsinə, habelə Azərbaycanın beynəlxalq arenadakı demokratik Azərbaycan dövlətinin qətiyyəti, xalqımızın siyasi iradəsi, Ordumuzun gücü, qüdrəti sayəsində işğala son qoyuldu.

Bu gün Azərbaycan üçün tarixi bir gündür. Builki bayramımız həm də onunla əlamətdardır ki, 30 il işğal altında olan torpaqlarımız azad olundu. Ədliyyə işçilərinin peşə gününün Vətən Müharibəsində böyük qələbəmizə təsadüf etməsi bu tarixi daha da əlamətdar etdi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsi həm siyasi, həm də hərbi arenada Azərbaycanın şanlı qələbəsi ilə yekunlaşdı. Qırx dörd gün sürən zəfər yürüşü ərzində ölkəmiz döyüş meydanında hərb tarixinə düşəcək böyük uğurlar əldə etmişdir. Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayon üzərindəki beynəlxalq səviyyədə tanınmış suverenliyi bərpa etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsinə tam uyğun olaraq özünümüdafiə hüququnun həyata keçirilməsi nəticəsində işğal olunmuş torpaqlarımızın böyük hissəsi bu müddət ərzində işğalçılardan azad edilmişdir, 300-ə yaxın yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan azad olunmuşdur. Bu gün böyük qürur və fəxarət hissi ilə deyə bilirik ki, Azərbaycanın şanlı bayrağı millətimizin mədəniyyət beşiyi olan Şuşa şəhərində dalğalanır. Üçrəngli bayrağımızın noyabrın 8-də Qarabağın döyünən ürəyində - Şuşada dalğalanması hər birimizi qürurlandırdı. Şuşanın işğaldan azad olunması növbəti qələbələrimizin əsası kimi dəyərləndirildi. İşğaldan azad olunan Qarabağda, Azərbaycan torpaqlarında, Şuşada bu gün 28 ildən sonra azan səsləndirilir, Şanlı Azərbaycan bayrağı dalğalandırılır. Müzəffər Ali Baş Komandanımızın sözləri ilə desək: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Bəli, biz Qarabağa qayıdırıq. Biz işğaldan azad olunan o torpaqları cənnətə çevirəcəyik. Dağıdılmış məscidlərimizi, məktəblərimizi, digər sosial infrastruktur obyektlərimizi yenidən quracağıq, yaradacağıq, tikəcəyik, dağıdılmış iqtisadiyyatı bərpa edəcəyik. Bu bölgədə mövcud olan böyük potensialı iqtisadi dövriyyəyə cəlb edəcəyik. Ərazi bütövlüyü bərpa olunmuş müstəqil Azərbaycanı ən inkişaf etmiş dövlətlərdən birinə çevirəcəyik.

Azərbaycan xalqı bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur hissləri yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində 10 milyonluq Azərbaycan xalqı 44 gün ərzində 28 ildir həsrətində olduğu doğma Qarabağımızı işğaldan azad etdi, Vətənimizin ərazi bütövlüyü bərpa olundu, müstəqil Azərbaycan əzəli düşməni olan işğalçı Ermənistan üzərində qətiyyətli tarixi qələbə qazandı, onilliklər boyunca Vətən torpağında həlak olan şəhidlərimizin, etnik zəmində xüsusi qəddarlıqla qətlə yetirilən dinc azərbaycanlıların, amansız işgəncələrə məruz qalan günahsız insanlarımızın, körpələrin, qadınların, uşaqların, ahılların doğma yurd-yuvasından didərgin salınan soydaşlarımızın qisası bu faciələri törədən erməni qatillərindən və onların cinayətkar-faşistlərindən alındı. Hər bir azərbaycanlının qəlbində yüksək qürur hissləri yaradan Şanlı və tarixi qələbəmiz Azərbaycan xalqında milli oyanışa, yeni bir dirçəlişə, birliyə səbəb oldu. 44 günlük Vətən müharibəsində Azərbaycan dövləti qətiyyətli qələbə qazandı. Eyni zamanda bütün Azərbaycan xalqı Prezidentimizin ətrafında dəmir yumruq kimi birləşərək sözün əsl mənasında böyük xalq ulu türk millətinin cəsur, qəhrəman bir boyu olduğunu bir daha sübut etdi, bu günlərdə misilsiz birlik, həmrəylik nümayiş etdirdi və cəmiyyətimizdə mövcud olan Xalq-Lider-Ordu birliyini daha yüksək səviyyəyə qaldırdı. Xalq öz Liderinə ürəkdən inandı və Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının etimadını əməli fəaliyyəti və şanlı zəfəri ilə hər zaman qeyd etdiyi kimi doğrultdu. Möhtərəm Prezidentimiz öz qətiyyəti, sarsılmaz iradəsi, cəsarəti, Azərbaycana edilən bütün təzyiqlərə məharətlə sinə gərməsi və son dərəcə mürəkkəb və çətin müharibə şəraitində hərbi meydanda, siyasi arenada, informasiya müharibəsində parlaq qələbələr qazanaraq Azərbaycan xalqına söz verdiyi kimi sona qədər getdi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi və Vətən torpağı uğrunda şəhid olan bütün oğul-qızlarımızın qisasını aldı. Əminliklə deyə bilərik ki, İlham Əliyev öz adını milli tariximizin son 200 ildə ən şanlı və müzəffər sərkərdəsi kimi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə əbədi həkk etdi. İlham Əliyev Azərbaycanın ürəyi olan Qarabağın tacı, göz bəbəyi, mədəniyyət paytaxtı Şuşa şəhərini, eyni zamanda 28 ildir ki, işğal altında olan Zəngilan, Qubadlı, Füzuli, Cəbrayıl şəhərlərini, neçə-neçə qəsəbələrimizi, kəndlərimizi, strateji yüksəkliklərimizi, tarixi Xudafərin körpüsünü, bir sözlə Azərbaycanın mənfur düşmən tapdağında olan 20 faiz ərazisini işğaldan azad edən Fateh oldu. Uzun illərdir ermənilər tərəfindən işğal altında saxlanılan 132 km-lik Azərbaycan-İran sərhədində artıq Azərbaycan sərhədçiləri dayanır, gənc nəslin tarix dərsliklərində haqqında oxuduğu Xudafərin körpüsündə də Azərbaycan bayrağı ucalır.

Şanlı Vətən Müharibəsində, İkinci Qarabağ Savaşında qazandığımız bu tarixi qələbədə əlbəttə ki, Azərbaycan Ordusunun, Silahlı Qüvvələrimizin bütün komandir heyətinin, əsgər və zabitlərinin, Azərbaycan hərbçilərinin misilsiz rolu mütləqdir. Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu yüksək peşəkarlıq, məharət və fədakarlıq nümayiş etdirərək müasir hərb tariximizin ən şanlı qələbələrini qazandı və XXI əsrin yeni müharibə modelini bütün dünyaya təqdim etdi. İşğaldan azad olunan bütün torpaqlarımızın hər qarışı qanı ilə sulandı, ərazi bütövlüyü bərpa olunan Şanlı Azərbaycanın mənfur düşməndən təmizlənmiş torpaqları məğrurluqla dalğalanan üçrəngli Azərbaycan bayrağı şəhidlərimizin qanıyla yoğrulan Qələbəni təsdiq etdi. Müqəddəs Azərbaycan torpağını Vətən edən bütün qəhrəmanlarımızın, şəhidlərimizin, qazilərimizin, ön və arxa cəbhədə fədakarlıqla bu işə töhfə verən Azərbaycan hərbçilərinin, onların valideynlərinin, ailə üzvlərinin, xüsusilə bütün şəhid analarının qarşısında baş əyirik. Bu qələbə sevincimizi, Vətən torpağının azadlığını biz Ali Baş Komandanımıza və Azərbaycan əsgərinə, bu şanlı tarixi qanı, canı ilə yazan şəhidlərimizə borcluyuq. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsinin hər bir günündə düşmənin başına od ələyən, onu əzib keçən, hər gün yeni qələbə xəbərləri, yeni azad olunmuş torpaqların zəfər xəbərini bəxş edən Azərbaycan əsgərlərinin hər birinin əziz xatirəsini daim yaşadacaq və uca tutacaqdır. Bu qədər qısa müddət ərzində yeni əsrin yeni hərb nümunəsini yaradan, mənfur düşmənin illərlə qurduğu, möhkəmləndirdiyi istehkamları, saysız-hesabsız hərbi texnikasını məhv edən və Qarabağı azad edən Azərbaycan Ordusunun müzəffər Ali Baş Komandanı İlham Əliyevin bu möhtəşəm qələbəsi hələ uzun illər hərbi ekspertlər, tarixçilər, siyasətçilər və s. tərəfindən araşdırılacaq, öyrəniləcək və zəfərlə nəticələnən uğurlu müharibə dastanına çevriləcəkdir.

Ali Baş Komandan İlham Əliyev böyük siyasi iradə nümayiş etdirərək Azərbaycanın qəti və dəyişməz mövqeyini ortaya qoydu, dövlətimizə qarşı yönələn bütün beynəlxalq təzyiqlərə sinə gərərək ölkəmizin ərazi bütövlüyü təmin edilənə qədər Ordumuzun döyüşləri davam etdirəcəyini qəti və əzmkar şəkildə bəyan etdi.

Böyük strateji əhəmiyyətə malik və Qafqazın incisi sayılan Şuşanın qüdrətli Ordumuz tərəfindən işğaldan azad edilməsi isə çox mühüm tarixi hadisəyə çevrildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşanın erməni işğalından azad edilməsi barədə müjdəsi Azərbaycan xalqı tərəfindən xüsusi coşqu ilə qarşılandı. Şuşanın azad edilməsi Azərbaycan xalqının möhtəşəm tarixi qələbəsinə çevrildi. Şuşanın azad edilməsi, eyni zamanda, dövlətimizin başçısı İlham Əliyevin parlaq qələbəsidir. Şuşanın azad edilməsi ilə Ermənistan çıxılmaz duruma düşdü. Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdürüldü, Paşinyanın öz ölkəsini və dünya ictimaiyyətini aldatmaq taktikası əhəmiyyətini birdəfəlik itirdi. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu ərazi bütövlüyümüzün təmin edilməsi yönündə öz vəzifəsini layiqli şəkildə yerinə yetirdi. 28 il işğal altında qalan mədəniyyət beşiyimiz olan Şuşanın azad edilməsi böyük siyasi, strateji və mənəvi məzmun daşıyır. Şuşanın azad edilməsindən bir gün sonra - Dövlət Bayrağı Günündə, noyabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyev daha 71 kəndin, iki qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə Azərbaycan xalqını məlumatlandırdı. Yaranmış vəziyyət Ermənistan rəhbərliyini məcbur etdi ki, noyabrın 10-da məlum bəyanatı imzalasın. İmzalanan bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir və Azərbaycanın siyasi maraqlarını təmin edən bir sənəddir. Bu bəyanat 30 ilə yaxın davam edən işğala birdəfəlik son qoyur. Razılaşmaya əsasən, Ermənistan öz üzərinə Kəlbəcər, Laçın və Ağdam rayonları ərazisindən işğalçı qoşunlarının çıxarılması barədə öhdəlik götürdü. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı Azərbaycanın siyasi qələbəsi oldu. Dövlətimizin başçısı İlham Əliyev İkinci Qarabağ müharibəsinin başlandığı gündən, baxmayaraq ki, döyüş meydanında üstünlük bizim tərəfimizdə idi, yenə də münaqişənin danışıqlar masası ətrafında həllinin vacibliyini bəyan edərək Ermənistandan irəli sürülən şərtlərə əməl etməyi tələb etdi.

Beləliklə, məcburi köçkün olan həmvətənlərimizin 30 illik yurd həsrətinə son qoyuldu. Onlar öz doğma torpaqlarına qayıda biləcəklər. Daha bir vacib məqam ondan ibarətdir ki, imzalanmış bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yazılmayıb. Bu isə o deməkdir ki, Qarabağa heç bir status, muxtariyyət verilmir. Eyni zamanda, Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Bununla da Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmək istiqamətində tarixi addım atıldı. Naxçıvanın 30 illik blokadasına son qoyulur, eyni zamanda, türk dünyasının birbaşa yerüstü tranzit-rabitə əlaqələri bərpa edilir. İmzalanmış bəyanata əsasən, münaqişə tərəflərinin razılaşmalara



əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması böyük əhəmiyyət daşıyır. Bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcəklər. Bu, o deməkdir ki, Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaq.

Bir sözlə, Azərbaycan xalqı və dövləti böyük tarixi zəfər qazanıb. Noyabrın 11-də 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüş zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyev demişdir: **"Eyni zamanda, bildiyiniz kimi, bu 44 gün ərzində düşmən öz məğlubiyyətinin acısını mülki vətəndaşlardan çıxarmaq istəyirdi. Bunun nəticəsində 93 mülki şəxs həlak oldu, 400-dən çox mülki şəxs yaralandı, 3 mindən çox bina ya dağıldı, yandı, ya da ki, ziyan gördü. Mən artıq göstəriş vermişəm, bölgələrə qruplar göndərilir, vurulmuş ziyan hesablanır. Dağılmış bütün evlərin hamısı dövlət hesabına yenidən tikiləcək, zərər görmüş bütün evlər dövlət tərəfindən bərpa ediləcək. Vətəndaşlarımızın itirilmiş mülkiyyəti bərpa ediləcək, itirilmiş ev heyvanları vətəndaşlara veriləcək. Yəni, bizim vətəndaşlarımız tam əmin ola bilərlər ki, onların itirilmiş bütün mülkiyyəti bərpa ediləcək. Mən söz verirəm ki, onlar üçün tikiləcək evlər, əvvəlki evlərdən daha yaxşı olacaq, daha keyfiyyətli olacaq, daha geniş olacaq. Biz bunu edəcəyik. Bizim üçün xalqımızın rifahı, təhlükəsizliyi birinci məsələdir. Ancaq bu dövr ərzində mənim üçün ondan da vacib məsələ torpaqlarımızın qaytarılması idi, ərazi bütövlüyümüzün bərpası idi, bayrağımızın Şuşada ucaldılması idi, işğal altında olan bütün başqa torpaqlarda bayrağımızın qaldırılması idi. Buna nail olduq!"**

Əminliklə qeyd etmək istərdik ki, Azərbaycanın məhkəmə və ədliyyə orqanları bundan sonra da dövlətimizin müstəqilliyinin daha da möhkəmlənməsi naminə səmərəli fəaliyyət göstərəcək və çağdaş Azərbaycanın hüquqi dövlət quruculuğu tarixində layiqli yerini tutacaqlar.

Fürsətdən istifadə edərək Möhtəşəm qələbə və Ədliyyə günü münasibəti ilə ədliyyə orqanlarının çoxminli kollektivinin hər bir üzvünü, səmimiyyətlə təbrik edir, ən xoş arzularımı bildirirəm.

**Ələddin MƏCİDOV,**
**Şəki Apelyasiya Məhkəməsinin**
**Mülki Kollegiyasının sədri.**